HƏYAT BİLGİSİ

2

Dərslik

Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi *Üzeyir Hacıbəylinin,*
sözləri *Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

GÜLƏR MEHDİYEVA
AYBƏNİZ İBRAHİMOVA

Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Həyat bilgisi fənni üzrə DƏRSLİK

© Azərbaycan Respublikası Təhsil Nazirliyi

Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi aspoligraf.ltd@gmail.com və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

“ASPOLİQRAF”

KİTABIN İÇİNDƏKİLƏR

BİZ ŞAGİRDİK

AİLƏDƏ VƏ MƏKTƏBDƏ

1. Yenidən məktəbə 6
2. Yolda və nəqliyyatda 9
3. Ailədə 12
4. Evdə və məktəbdə 15
5. Gün rejimi 18

SAĞLAM HƏYAT

6. Sağlam olmağın yolları 20
7. Yoluxucu xəstəliklərdən necə qorunmalı? 24
8. Təhlükələrdən qorunmağı bacaraq 26
9. Qəza baş verərsə.....29

BİZ TƏBİƏTİN BİR HİSSƏSİYİK

TƏBİƏT NƏDİR?

10. Yer kürəsi.....32
11. Günəş bizə yol göstərir.....34
12. Günəş, hava, su, torpaq 37
13. Canlılar.....39
14. Ətraf mühiti nə çirkləndirir? 43

TƏBİƏT HADİSƏLƏRİ

15. Temperatur və onun ölçülməsi 45
16. Damlanın hekayəsi 47
17. Aysunun ağacı.....49
18. Milli Parkda.....52

BİZ VƏTƏNDAŞIQ

İNSANLAR ARASINDA

19. Güc birlikdədir 56
20. Hüquqlarımız qorunur 58
21. Yaxşı nədir, pis nədir? 61
22. Cibxərcliyi.....65
23. Sonanın sualı 67

VƏTƏNİMİZ

24. Azərbaycan Respublikası 69
25. Ordumuz bizi qoruyur 72
26. Azərbaycanın milli pulu 75
27. Doğma Vətən.....77

Ədəbiyyat siyahısı 79

DƏRSLİKDƏ İSTİFADƏ OLUNAN ŞƏRTİ İŞARƏLƏR

Sizin bələdçiləriniz

Sual və tapşırıq

Diqqət edək!

BİZ ŞAGİRDİK

AİLƏDƏ VƏ MƏKTƏBDƏ

- Yenidən məktəbə
- Yolda və nəqliyyatda
- Ailədə
- Evdə və məktəbdə
- Gün rejimi

SAĞLAM HƏYAT

- Sağlam olmağın yolları
- Yoluxucu xəstəliklərdən necə qorunmalı?
- Təhlükələrdən qorunmağı bacaraq
- Qəza baş verərsə

1. YENİDƏN MƏKTƏBƏ

Artıq məktəbdəyik. Sinif yoldaşlarımı yenidən gördüyüm üçün çox sevinirəm. Məktəbimizi çox sevirəm. Burada çoxlu dostlarım var. Hamımız məktəbimizin qaydalarına əməl edirik.

Məktəbdə şagirdlər hansı qaydalara əməl etməlidirlər?

Məktəbli forması geyinirik. Dərsə vaxtında gəlirik. Çantamız, dərsliklərimiz, məktəbli formamız həmişə səliqəli olur.

Bu bizim sinif otağımızdır.

Dərslərimiz maraqlı keçir. Hamımız dərslərdə fəal olmağa çalışırıq.

Məktəbin avadanlıqlarını səliqə ilə işlədirik.

Sinif otağımızı səliqəli saxlayırıq. Divardakı şəkilləri sinif yoldaşlarım çəkiblər. Gördüyünüz fiqurları da özümüz düzəltmişik. Mən kağızdan fiqurlar düzəltməyi sevirəm. Sinif otağımızdakı bitkilərə də özümüz qulluq edirik.

Birinci sinfi uğurla başa vurmuşuq. Bu dərs ilində də fəal olacağıq, çünki yeni bilik və bacarıqlara yiyələnmək istəyirik.

1) Məktəb qaydalarına nə üçün əməl etmək lazımdır?
2) Sinfinizdə nə xoşunuza gəlir? Nə üçün?

İkinci sinifdə bilik və bacarıqlarımızın bir az da artması üçün yeni dərs ilində daha səylə çalışmalıyıq.

2. YOLDA VƏ NƏQLİYYATDA

Biz yolda hansı qaydalara əməl etməliyik?

Yeraltı və yerüstü keçidlər olan yerlərdə mütləq onlardan istifadə etmək lazımdır.

yeraltı keçid nişanı

yerüstü keçid nişanı

Yeraltı və yerüstü keçidlərdən başqa yollarda ağ zolaqlar çəkilmiş piyada keçidləri də olur. Yolların kənarında belə keçidləri göstərən işarələr quraşdırılır.

Bir çox piyada keçidlərində işıqfor qoyulur. İşıqforun piyadalar üçün yaşıl işığı yananda avtomobillər dayanır və piyadalar yolu keçirlər.

Bəzi piyada keçidlərində isə işıqfor qoyulmur. Belə keçidlərdə sürücülər avtomobili saxlayıb piyadalara yol verirlər.

piyada keçidi nişanı

Piyada keçidində hərəkət etməyin də qaydaları var!



Piyada keçidindən keçərkən

İşıqfor qoyulmayan keçidə yaxınlaşanda sürücünün sizi gördüyünə əmin olmaq lazımdır. Belə halda o, avtomobilin sürətini azaldır. Avtomobil tam dayanandan sonra yolu keçmək lazımdır.

Hərəkət ikitərəfli olan yolu keçərkən:

– əvvəlcə sola baxmaq;

– sonra yolun yarısınadək gedib dayanmaq və sağa baxmaq lazımdır.

Təhlükəsizliyə əmin olmaq, sonra hərəkət etmək lazımdır.

NƏQLİYYAT VASİTƏLƏRİNDƏ NECƏ DAVRANMALI?

Avtobus tam dayandıqdan sonra ona yaxınlaşmaq olar. Avtobusa ön qapıdan daxil olmaq, arxa qapılardan enmək lazımdır.

Hərəkətdə olan liftin düymələrinə toxunmaq olmaz.

Eskalatorda qaçmaq və ya oturmaq olmaz. Eskalatorda sağ tərəfdə, üzü hərəkət istiqamətində dayanmaq lazımdır.

1) Yol hərəkəti qaydalarına əməl etməsək, hansı təhlükə yaranar?
2) Yol hərəkəti qaydalarını bilməyən yoldaşlarınıza necə kömək edirsiniz?

Yolda və nəqliyyat vasitələrində davranış qaydalarını bilmək və bu qaydalara əməl etmək lazımdır. Bu qaydalara əməl etsək, həyatımız üçün təhlükə yaranmaz.

3. AİLƏDƏ

Ailə üzvləri bir-birinə qarşı necə davranmalıdır?

Ailə üzvləri: baba, nənə, ata, ana və uşaqlar doğma insanlardır. Onlar böyüklərə hörmət, kiçiklərə nəvaziş göstərirlər. Bir-birindən məsləhət alırlar. Mehriban danışır, xoş sözlər eşidirlər. Bir-birinin qayğısına qalır və qulluğunda dururlar.



Şəkildəki ailə haqqında danışın.

Bu şəkillərdəki ailə üzvlərinin münasibətləri haqqında danışın.

Siz evdə hansı işləri görürsünüz?

Uşaqlar daha hansı işləri görə bilərlər?

Bu uşaqlar hansı işləri görürlər?

Mən çalışıram ki, öz işlərimi özüm görüm. Artıq çox işlərin öhdəsindən asanlıqla gəlirəm. Məsələn, yatağımı yığışdırmağı bacarıram. Bu işdə kiçik bacı-qardaşıma da kömək edirəm. Yeməkdən sonra boşqabları götürüb stolu səliqəyə salıram.

1) Ailə üzvləri nə üçün bir-birinə kömək etməlidirlər?
2) Valideynlərinizə hansı işlərdə kömək edirsiniz?

Hər insan özünə aid olan işləri özü görməlidir.

4. EVDƏ VƏ MƏKTƏBDƏ

Siz gün ərzində kimlərlə ünsiyyətdə olursunuz?

Mən hər səhər ailəmizin üzvlərini salamlayıram:

– Sabahınız xeyir olsun!

Onlar gülümsəyirlər:

– Sabahın xeyir olsun! – deyirlər. Süfrə arxasında bir-birimizə deyirik:

– Nuş olsun!

Səhər mənzildən ilk çıxan:

– Salamat qalın!– söyləyir.

Evdəkilər cavab verirlər:

– Yaxşı yol!

Mən məktəbə yollanıram. Yolda sinif yoldaşım Turanla rastlaşıram. Söhbət edə-edə məktəbə tərəf gedirik.

Məktəbə çatıb sinfə daxil oluruq. Sinif yoldaşlarım Aygünü dövrəyə alıblar. Bu gün onun ad günüdür. Mən hazırladığım açıqçanı ona verirəm.

– Aygün, ad günün mübarək olsun!

Aygün:

– Çox sağ ol, təşəkkür edirəm!

Mən məktəbimizin nizam-intizam qaydalarına əməl edirəm, sinif yoldaşlarımla həmişə nəzakətli davranıram.

Xoş gördük.
Səni görməyimə şadam.

Hələlik.
Görüşənədək.


Buyurun.
Xahiş edirəm, mənə göy şarı verin.

Qələminizi götürmək olar?
Əlbəttə, olar.

Şəkillərdəki uşaqların hərəkətlərinə münasibət bildirin.

1) Mətndən nəzakətli sözləri seçib səsləndirin.
2) Nəzakətli sözlərdən istifadə etməklə rollu oyun hazırlayın.

Ünsiyyət zamanı nəzakətli olmaq lazımdır. Bu, insanlar arasında xoş ünsiyyət qurmağa kömək edir.

5. GÜN REJİMİ

Mən məktəbdən gələn kimi əvvəlcə əllərimi yuyuram. Nahar edib bir qədər dincəlirəm. Dərslərimi hazırlayıram. Otağımı səliqəyə salıram. Sonra şəkil çəkir, kitab oxuyur, musiqi dinləyir və televizora baxıram. Həyətdə dostlarımla oynamağa da vaxt ayırıram. Bütün işlərimi vaxtında yerinə yetirmək üçün gün rejimimi hazırlamışam.

Gün rejimi vaxtın düzgün bölünməsidir.

ŞAGİRDİN GÜN REJİMİ



Oyanıram.

7:00 – 7:15
İdman edirəm.

Yuyunuram.

7:30–7:45
Səhər yeməyini yeyirəm.

7:45–8:00
Məktəbə yollanıram.

8:00–12:15
Məktəbdə oluram.

12:15–12:30
Məktəbdən gəlirəm.

12:30–14:00

Paltarımı dəyişirəm, əllərimi yuyuram və nahar edirəm.

14:00–17:00

İstirahət edirəm və ev tapşırıqlarını yerinə yetirirəm.

17:00–19:00
Dostlarımla oynayıram, sonra axşam yeməyini yeyirəm.

19:00–21:00

Televiziya verilişlərinə baxıram, sevdiyim işlərlə məşğul oluram.

21:00–7:00
Yatıram.

Siz də öz gün rejiminizi tərtib edin.

Bütün işləri yerinə yetirmək üçün gün rejimi hazırlamaq və ona əməl etmək lazımdır.

6. SAĞLAM OLMAĞIN YOLLARI

Nə üçün bayramlarda, ad günlərində bir-birini təbrik edənlər, adətən, “Sənə uzun ömür, cansağlığı arzulayıram” deyirlər?

Sağlam insan işlərinin öhdəsindən asanlıqla gəlir. Sağlamlıq xoş əhvali-ruhiyyə deməkdir. Ona görə də hər kəs öz sağlamlığının qayğısına qalmalıdır.

Şəkillərdə gördüyünüz uşaqların vəziyyətini müqayisə edin.

Xəstələnəndə insan özünü pis hiss edir. Buna görə də öhdəsinə düşən işləri yaxşı və vaxtında yerinə yetirə bilmir. Onun iştahası olmur, əhvalı pozulur.

Sağlam böyümək üçün biz nə etməliyik?

Sağlam böyümək üçün düzgün qidalanmalıyıq: hər gün vaxtında yeməli, vitaminli qidalar qəbul etməliyik.



Sağlam olmaq, xəstəliklərdən qorunmaq üçün təmizliyə diqqət etməliyik. Əllərimizi tez-tez və yeməkdən əvvəl mütləq sabunla yumalıyıq.

Uzanmış dırnaqlarda xəstəliktörədicilər toplana bilər. Ona görə də dırnaqları çox uzanmadan kəsmək lazımdır.

Ayaqlarımız gün ərzində corab və ayaqqabıda olur. Bu, ayaqda pis qoxuya və xəstəliklərə səbəb ola bilər. Ona görə də hər axşam ayaqlarımızı yumalı, corablarımızı hər gün dəyişməliyik.

Vaxtlı-vaxtında çimmək sağlamlığı qorumağa kömək edir. Çiməndən sonra təmiz paltarlar geyinmək lazımdır.

Hər gün səhər və axşam dişlərimizi fırçalamalıyıq.

Gün ərzində hərəkət edib yoruluruq. Yuxu rejiminə əməl etsək, dincələrik və növbəti gün səhər yuxudan gümrah oyanarıq. Yuxu həm də tez böyüməyimizə kömək edir.



Dincəlmək üçün yalnız yatmaq kifayət etmir, musiqi dinləmək, rəsm çəkmək, kitab oxumağa da zaman ayırmalıyıq.

Açıq havada oynamaq, oturduğumuz və yatdığımız otağın havasını tez-tez dəyişmək sağlamlığın əsas şərtlərindəndir.

1. Düzgün qidalanmaq üçün nələrə diqqət edirsiniz?
2. Dişlərinizi gündə neçə dəfə və hansı qaydada fırçalayırsınız?
3. Gündə neçə saat yatırsınız?
4. Siz dincəlmək üçün hansı məşğuliyyətlərə üstünlük verirsiniz?

Sağlamlığımız geyimimizlə necə bağlıdır?

Fəslə və hava şəraitinə uyğun geyinməyin sağlamlıq üçün böyük əhəmiyyəti var. Hər fəslin özünə uyğun geyimi var. Fəsillər və hava şəraiti dəyişdikdə geyim də dəyişməlidir.

Hava şəraitinə uyğun geyinməyi şərh edin.

Sağlamlığı qorumaq üçün düzgün qidalanmaq, gigiyena qaydalarına və yuxu rejiminə əməl etmək, yorulanda dincəlmək, havaya uyğun geyinmək lazımdır.

7. YOLUXUCU XƏSTƏLİKLƏRDƏN NECƏ QORUNMALI?

Yoluxucu xəstəlik nədir?

Qrip yoluxucu xəstəlikdir. Yoluxucu xəstəliklər xəstə insandan sağlam insana keçərək yayılır.

Qriplə xəstələnmiş insanın hərarəti yüksəlir, öskürür, asqırır, tənəffüsü çətinləşir, halsız olur, boğazı, başı ağrıyır. Qripli biri ilə yaxın məsafədə olan sağlam adam qripə yoluxa bilər.

Angina da yoluxucu xəstəlikdir. Angina ilə xəstələnmiş insanın hərarəti qalxır. Boğazında kəskin ağrı və irin yaranır. Xəstəlik anginalı xəstənin istifadə etdiyi yuyulmamış qab-qacaqdan keçə bilər.

Özündə qrip və anginanın əlamətlərini hiss edən uşaq məktəbə getməməli, evdə valideynlərinin və həkimin nəzarətində olmalıdır.

Əlləri tez-tez sabunla yumaq, tibbi maska taxmaq, məsafə saxlamaq insanları yoluxucu xəstəliklərdən qoruyur.

1

Asqıranda və öskürəndə ağız-burnunuzu salfetlə örtün!

2

İstifadə etdiyiniz salfeti dərhal qapaqlı zibil qabına atın!

3

Əllərinizi tez-tez sabunla yuyun!

ÖZÜNÜZÜ VƏ BAŞQALARINI YOLUXUCU XƏSTƏLİKLƏRDƏN QORUYUN

4

Xəstələnmişsinizsə, valideyninizin tövsiyələrinə əməl edin!

5

Xəstə halda görüşərkən qucaqlaşmaq və əl sıxmaqdan qaçının!

6

Tibbi maskadan istifadə edin!

Peyvənd yoluxucu xəstəliklərə qarşı xüsusi vasitədir. Peyvənd olunmaqdan qorxmaq lazım deyil, çünki peyvənd insanları yoluxucu xəstəliklərdən qorumaq üçündür.

1) Venn diaqramında qrip və angina xəstəliyini müqayisə edin.
2) Yoluxucu xəstəliklərdən qorunmağın yolları haqqında danışın.

Bəzi xəstəliklər asanlıqla bir insandan başqasına keçə bilir. Belə xəstəliklərdən qorunmaq üçün qaydalara əməl etmək və peyvənd olunmaq lazımdır.

8. TƏHLÜKƏLƏRDƏN QORUNMAĞI BACARAQ

Bu zaman nə baş verə bilər?

İnsanlar televizor, radio, fen, soyuducu, paltaryuyan, qaz sobasından istifadə edirlər. Bunlar məişət cihazlarıdır. Məişət cihazlarından istifadə qaydalarına əməl etməyəndə həyatımız üçün təhlükə yaranır. Məsələn, elektrik cihazlarını şəbəkəyə qoşanda, yaxud şəbəkədən ayıranda tələsmək, naqili dartmaq olmaz.

İşləyən elektrik cihazına yaş əllə toxunmaq təhlükəlidir.

Qayçı, bıçaq, çəkic, burğu kimi kəsici-deşici alətlərdən istifadə edərkən də diqqətli olmaq lazımdır.

Ehtiyatlı olmağınızı tələb edən başqa təhlükələr də var!

● Tikinti işləri gedən yerlərdə oynamaq olmaz.

● Böyüklərin nəzarəti olmadan dəniz, göl və gursulu çayların kənarında oynamaq təhlükəlidir.

● Nə olduğunu bilmədiyiniz əşyalara toxunmayın.

● Kiçikyaşlı uşaqlar telefondan və kompüterdən yalnız böyüklərin nəzarəti ilə istifadə etməlidirlər.

● Qida məhsulu alarkən mütləq istifadə vaxtına baxın. Köhnəlmiş qida məhsulları da həyat üçün təhlükə yarada bilər.

● Tanımadığınız ərazilərə böyüklərin müşayiəti olmadan girməyin! Döyüşlər aparılmış yerlərdə siz müharibə zamanı basdırılmış minalara, partlamamış mərmilərə, digər hərbi sursatlara rast gələ bilərsiniz. Mina, mərmi və digər naməlum əşyalara heç vaxt toxunmayın! Bunlar həyat üçün təhlükə mənbəyidir.

Sadalanan hallarda, sizcə, həyat üçün hansı təhlükələr yarana bilər?



Dərmanlara toxunmayın!

Eyvanda oynamayın!



Heyvanları qıcıqlandırmayın!

Yeriyəndə ehtiyatlı olun!

1) Valideynləriniz sizə hansı məişət cihazlarından istifadə etməyə icazə verir?
2) Hansı məişət cihazları yanğına səbəb ola bilər?
3) Hansı yerlərdə oynamaq uşaqlar üçün təhlükəsizdir?

Evdə tək olduğumuz zaman, dostlarımızla oynayarkən təhlükəsizliyimiz üçün çox diqqətli olmalıyıq.

9. QƏZA BAŞ VERƏRSƏ

Hansı dağıdıcı təbiət hadisələrini tanıyırsınız?

Təbiət hadisələri insanlardan asılı deyil. Zəlzələ, sel, daşqın, torpaq sürüşməsi təbiət hadisələridir. Bu hadisələr bəzən böyük dağıntılara səbəb olur. Belə hallarda insanlar həyatlarını qorumaq üçün təhlükəsizlik qaydalarını öyrənməlidirlər.

Zəlzələ zamanı özünüzü belə qoruya bilərsiniz!

Zəlzələ zamanı davranış qaydaları

Əgər çoxmərtəbəli binadasınızsa:

- Çölə qaçmağa çalışmayın, içəri daha təhlükəsizdir.
- Qapı tağının, masanın, çarpayının altında gizlənin.
- Otaqda möhkəm mebel yoxdursa, onda divarın küncünə sıxılın.
- Sobadan, pəncərədən və eyvandan kənarda dayanın.
- Liftdən istifadə etməyin.

Birmərtəbəli binadasınızsa, dərhal evi tərk edin.

Bəzən insanların ehtiyatsızlığından yanğınlar, partlayışlar baş verir. Belə qəzalar zamanı ətraf mühit toz və zəhərli maddələrlə çirklənir. Bu cür hallarda insanların özlərini tozun və zəhərli maddələrin təsirindən qoruması üçün müxtəlif vasitələr var. Əleyhqaz və respiratorlar belə vasitələrdəndir. Diqqət etsəniz, insanların çox olduğu böyük binalarda qırmızı rəngli balonlar görərsiniz. Bunlar yanğınsöndürmə balonlarıdır. Yanğınsöndürmə balonları yenicə başlayan yanğını tez söndürmək üçündür.

respirator

Evdə yanğın baş verərsə, belə etməlisiniz!

- Özünüzü itirməyin, dərhal ***112 nömrəsinə*** zəng edib ünvanı dəqiq söyləyin.
- Otağı tərk edin.
- Otaqdan çıxmağa macal tapmasanız, tüstüdən boğulmamaq üçün döşəməyə uzanın. Ağız və burnunuzu yaş dəsmalla örtün.

yanğınsöndürmə balonu

Təbii fəlakətlərin və qəzaların fərqini izah edin.

Təbii fəlakətlər və qəzalar zamanı xüsusi davranış qaydaları var. Həyatımızı qorumaq üçün bu qaydaları öyrənmək və onlara əməl etmək lazımdır.

BİZ TƏBİƏTİN BİR HİSSƏSİYİK

TƏBİƏT NƏDİR?

- Yer kürəsi
- Günəş bizə yol göstərir
- Günəş, hava, su, torpaq
- Canlılar
- Ətraf mühiti nə çirkləndirir?

TƏBİƏT HADİSƏLƏRİ

- Temperatur və onun ölçülməsi
- Damlanın hekayəsi
- Aysunun ağacı
- Milli Parkda

10. YER KÜRƏSİ

Biz yaşadığımız Yer planeti haqqında nəyi bilirik?

Bu gün müəllimimiz bizə Günəş və planetlər haqqında danışdı. O dedi ki, bizim yaşadığımız Yer planeti kürə şəklindədir. Ona Yer kürəsi də deyirlər. Yer kürəsi dayanmadan Günəşin ətrafında fırlanır. Günəşin ətrafında Yerdən başqa yeddi planet də var, ancaq Yerdəki həyat digər planetlərdə yoxdur.



Günəş və planetlər

Yer planetində daha nələr var?

Qlobus

Qlobus Yerin kiçik modelidir. ***Xəritə*** isə Yer kürəsinin, yaxud onun ayrı-ayrı hissələrinin kiçildilmiş təsviridir. Yer üzündəki okean və dənizləri, çayları, dağları, düzənlikləri göstərmək üçün qlobusda və xəritədə müxtəlif rənglərdən istifadə olunur.

Xəritə və qlobusun çox hissəsi mavi rəngdədir. Mavi rəng okean, dəniz, göl və çayları bildirir. Demək, Yer kürəsi üzərində çox sahəni su tutur.

Qlobus və xəritəyə diqqət edəndə bəzi yerlərin açıq, bəzi yerlərin isə tünd rənglənddiyini görürük. Bu ona görə belədir ki,

suların dərinliyi hər yerdə eyni deyil. Bunu göstərmək üçün dərin yerlər tünd, dayaz sular isə açıq-mavi rənglənir.

Dağlar qəhvəyi rənglə göstərilir. Hündür dağlar tünd-qəhvəyi rəngdə verilir. Hündürlük azaldıqca tünd-qəhvəyi rəng açıq-qəhvəyi rəngə keçir.



Dünya xəritəsi

Xəritə və qlobusda buzlaqlar ağ, düzənlik ərazilər isə yaşıl rənglə göstərilir.

1) Yer planetinə nə üçün "Yer kürəsi" də deyirlər?
2) Xəritə və qlobusda rənglərdən necə istifadə olunur?

Qlobus və xəritə Yer kürəsindəki su sahələrini, dağları, düzənlikləri və buzlaqları göstərir.

11. GÜNƏŞ BİZƏ YOL GÖSTƏRİR

Televiziyada, radioda hava haqqında məlumat verərkən “Şimal küləyi əsəcək”, “Qərb küləyini cənub küləyi əvəz edəcək”, yaxud da “Şərq küləyi əsəcək” kimi ifadələr işlədirlər.

“Şimal”, “Şərq”, “Qərb”, “Cənub” sözləri nəyi bildirir?

Günəş səhər səmada sanki yavaş-yavaş yuxarı qalxır. Günorta vaxtı başımızın üstündə dayanır. Sonra yenə aşağı enməyə başlayır və axşam gözdən itir. Günəşin səhər göründüyü tərəf ***şərq***, günorta vaxtı dayandığı istiqamət ***cənub*** adlanır. Axşamüstü Günəşin gözdən itdiyi tərəf isə ***qərbdir.*** Bunlara ***cəhətlər*** deyirlər. ***Şimal*** adlanan 4-cü cəhət də vardır. Bizim ölkəmizdə günəş şimalda görünmür.

Siz günəşin köməyi ilə cəhətləri asanlıqla müəyyən edə bilərsiniz.

Cəhətləri bilmədən meşədə, çöldə, səhrada, dənizdə hərəkət etmək çətin olur. Belə yerlərdə səyahətçilər yolu cəhətlərin köməyi ilə tapırlar.



Yaşadığınız yerdə Günəşin köməyi ilə cəhətləri müəyyən edin.

Cəhətləri yalnız Günəşə görə deyil, başqa üsullarla da müəyyən etmək olar.

Cırtdanın nağılını, yəqin ki, bilirsiniz. Nağılda uşaqlar meşədə azır və divə rast gəlirlər. Əgər onlar Günəşsiz vaxtda cəhətləri müəyyən edə bilsəydilər, meşədə azmazdılar və evlərinin yolunu asanlıqla tapardılar.

Günəşdən başqa cəhətləri ağaclara, qarışqa yuvasına görə də müəyyən etmək olar. Meşədə ağacların bir tərəfində sanki yaşıl örtük əmələ gəlir. Bu örtüyün yarandığı tərəf şimalı göstərir.

Meşədə bəzən ağac və kolların yanında qarışqa yuvaları yaranır. Bu yuvalar həmişə ağacın, yaxud kolun cənub tərəfində olur.

Şəkillərə baxıb orada cəhətləri müəyyən etməyə çalışın.

1) Gün ərzində Günəş yerini necə dəyişir?
2) Hansı cəhətlər var?
3) Cəhətləri necə təyin edirlər? Həmin üsulları sadalayın və şərh edin.

Biz cəhətləri Günəşə görə müəyyən edə bilərik. Günəş olmayanda ağaclar, qarışqa yuvası bizə cəhətləri tapmaqda kömək edə bilər.

12. GÜNƏŞ, HAVA, SU, TORPAQ

Günəş şüaları, hava, su, torpaq ətraf mühit amilləridir.

Təbiətdə suyun buxarlanması, qarın əriməsi və bir çox başqa hadisələr Günəşin təsiri ilə baş verir. Günəş yerə işıq və istilik verməsə, bütün canlılar məhv olar.

Diqqət etmisinizmi, insanlar vacib olan şeylər haqqında "O mənə hava və su kimi lazımdır" ifadəsini işlədirlər.

Hava və su canlıların yaşaması üçün vacibdir. Canlılar nəfəs almadan yaşaya bilməzlər. İnsan susuz bir neçə gün, havasız isə cəmi bir neçə dəqiqə yaşaya bilər. Nəfəs aldığı hava təmiz olmayanda insan xəstələnir. Ona görə də insanlar çalışmalıdırlar ki, hava çirklənməsin.

Yer səthinin çox hissəsini su tutur, ancaq bu suyun az hissəsi içməlidir. İçməli su getdikcə azalır.Yer kürəsinin bəzi yerlərində içməli su çatışmır.

Günəş, təmiz hava və su

Okean və dənizlərin suyu içməli deyil, çünki duzludur. Çayların suyu isə içməlidir. Göllərin bəziləri duzlu olsa da, çoxunun suyu içməlidir. Elə yerlər var ki, orada insanlar içməli suyun azlığından əziyyət çəkirlər. Ona görə də çayları çirkləndirmək olmaz. İçməli suyu qənaətlə işlətmək lazımdır.

Torpaq da həyatımız üçün vacib amillərdən biridir.

Yaşamaq üçün canlılara qida lazımdır. Bu qidanın böyük hissəsi torpaqda yetişir. Torpaqda yetişən bitkilər bir çox heyvanların qidasıdır. İnsanların da qidasının əsas hissəsini bitkilər təşkil edir.

Əkin sahəsi

1) Canlılar üçün Günəşin əhəmiyyətini izah edin.
2) Həyat üçün hava və suyun rolundan danışın.
3) Canlıların yaşaması üçün torpağın əhəmiyyəti nədir?

Bizim həyatımız ətraf mühit amillərindən asılıdır.

13. CANLILAR

BİTKİLƏR

Bitkilər bir-birindən necə fərqlənir?

Gövdələrinin quruluşuna görə bitkilər üç qrupa ayrılır: ağaclar, kollar və otlar.

Ağacların bir əsas gövdəsi olur. Ağac böyüdükcə onun gövdəsi yuxarıda budaqlanıb çətir əmələ gətirir.

Kolların yanaşı bitən bir neçə gövdəsi olur. Bu gövdələr ağacların gövdəsindən nazikdir.

Otlar zərif və yaşıl olur.

Ağac

Kol

Ot

Bitkilər necə yetişməsindən asılı olaraq mədəni və yabanı bitkilərə bölünür. İnsanların yetişdirdiyi bitkilər mədəni bitkilərdir.

MƏDƏNİ BİTKİLƏR

üzüm

pomidor

kələm

xiyar

Yabanı bitkilər meşə və çöllərdə insan əməyi olmadan bitir.

YABANI BİTKİLƏR

böyürtkən

itburnu

çobanyastığı

gicitkən

HEYVANLAR

Canlılar aləminin böyük bir qismini heyvanlar təşkil edir.

Heyvanlar xüsusiyyətlərinə görə bir-birindən fərqlənir.



köpəkbalığı

qurbağa



gözlüklü ilan

cırcırama

sincab

tutuquşu

Heyvanların bir hissəsi suda, bir hissəsi quruda yaşayır. Həm suda, həm də quruda yaşayan heyvanlar da vardır.

Bu heyvanların başqa hansı fərqlərini deyə bilərsiniz?

Heyvanlar ev heyvanlarına və vəhşi heyvanlara ayrılır. Ev heyvanlarını insanlar bəsləyirlər.

Ev heyvanları

Vəhşi heyvanlar meşə və çöllərdə yaşayır. Onların bəziləri otla, bəziləri isə ətlə qidalanır.

Vəhşi heyvanlar

İNSAN

İnsan digər canlılardan fərqlənir.

Canlılar aləmində insanın xüsusi yeri var. İnsan şüurlu varlıqdır. Başqa canlılardan fərqli olaraq insan təhsil alır, peşələrə yiyələnir, işləyir, incəsənətlə və elmlə məşğul olur.

İnsan elmlə və yaradıcılıqla məşğul olur.

İnsan bitki və heyvan bəsləyir.

İnsan mədəni bitkilər yetişdirir, heyvanları bəsləyib çoxaldır. İnsan əşya istehsal edir.

1) Tanıdığınız mədəni bitkilərin adlarını söyləyin.
2) Yabanı bitkilərə aid nümunələr söyləyin.
3) Yaşadığınız ərazidə olan ağacların adlarını söyləyin.
4) Hansı otyeyən heyvanları tanıyırsınız?
5) Hansı heyvanlara "yırtıcı heyvan" deyirlər?
6) İnsanı başqa canlılardan daha hansı xüsusiyyətlər fərqləndirir?

- Bitkilər və heyvanlar çox müxtəlifdir. İnsan gördüyü işlərlə digər canlılardan fərqlənir.
- İnsan bitki və heyvanlara diqqət göstərməli, onlarla qayğı ilə davranmalıdır.

14. ƏTRAF MÜHİTİ NƏ ÇİRKLƏNDİRİR?

Xatırlayın: ətraf mühit nədir?

Son zamanlar ətraf mühit çirklənmişdir. İnsanların sıx yaşadığı yerlərdə bu özünü daha çox göstərir. Ətraf mühitin çirklənməsinin çox səbəbləri var.

Sizcə, ətraf mühit ən çox haralarda çirklənə bilər?

Bəzi istehsal müəssisələrində yaranan tüstü, çoxsaylı nəqliyyat vasitələrinin hərəkəti nəticəsində hava çirklənir.

Havanın çirkləndirilməsi

İnsanların fəaliyyəti nəticəsində yaranan tullantılar və çirkab sular torpağı, çayları və digər içməli su mənbələrini çirkləndirir.

Torpağın neft tullantıları ilə çirklənməsi

Suyun məişət tullantıları ilə çirklənməsi

Hava, su, torpaq çirklənəndə canlılar aləmi ziyan çəkir: insanlar xəstələnir, bəzi bitki və heyvanlar məhv olur.

1) Ətraf mühitin çirklənməsinə nə səbəb olur?
2) İnsan təbiəti qorumaq üçün nə etməlidir? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

Avtomobillər, zavod və fabriklər, çirkab sular ətraf mühiti çirkləndirir. Bu isə canlılara ziyan vurur.

15. TEMPERATUR VƏ ONUN ÖLÇÜLMƏSİ

Temperatur nədir?

İsti, soyuq, ilıq, sərin, qızmar, qaynar kimi sözlər hamınıza tanışdır. Bu sözlər havanın, suyun, torpağın temperaturunu, yəni isti-soyuqluğunu bildirmək üçün işlədilir.

Soba

Soyuducu

İnsanlar temperaturu ölçə bilirlər.

Temperaturu ölçmək üçün termometr adlanan cihaz icad edilmişdir. Termometr vasitəsilə havanın, suyun, insan bədəninin temperaturu ölçülür. Termometrlər müxtəlif olur. ***Mayeli*** və ***elektron*** termometrlər var.

Elektron termometr

Elektron termometrlərdə temperatur ekranda işıqlanan rəqəmlərlə göstərilir. Mayeli termometrlərdə isə üstündə rəqəmlər yazılan lövhə (şkala) olur. Lövhəyə içərisində rəngli maye olan şüşə boru bərkidilir. İstidə şüşə borudakı maye yuxarı qalxıb istiliyə uyğun rəqəmin qarşısında dayanır.

Termometrlə yalnız istini yox, soyuğu da ölçmək mümkündür. Termometrin lövhəsində sıfırdan yuxarıdakı ədədlər istini, aşağıdakılar isə soyuğu göstərir.



İstini və soyuğu ölçən termometr

Bədən temperaturunu həm elektron, həm də civəli termometrlə ölçürlər. Termometrin şüşə borusunda çox zəhərli maye – civə var. Ona görə də civəli termometrlə ehtiyatlı davranmaq lazımdır. Əgər termometr sınarsa, civəyə toxunmaq olmaz.

Tibb termometrləri

1) Termometrlər nə üçündür?
2) Temperaturu ölçmək nə üçün lazım olur?
3) Bir gün ərzində səhər, günorta və axşam saatlarında hava termometrinin göstəricisini yazın. Rəqəmlərin fərqli olmasının səbəbini izah edin.

Havanın, suyun, insan bədəninin və digər varlıqların temperaturu onun qızma dərəcəsidir. Temperaturu termometrlə ölçürlər.

16. DAMLANIN HEKAYƏSİ

Qar, yağış necə yaranır?

Hava sakit idi. Yağış damlası yerə enirdi. Nəhayət, o, yaşıl otun üstünə, oradan da torpağa düşdü. Torpağı islatdı. Dərinliyə enib uzun-uzadı yol getdi.

Birdən damlanın gözü işıqdan qamaşdı. Axa-axa dənizə gəlib çatmışdı. Dənizin sularına qarışdı. Günəşin istisi hər tərəfi qızdırırdı. Bir də onu gördü ki, xırda zərrələr halında səmaya qalxır. Onunla birlikdə sayı bilinməyən damlalar da buxara dönüb səmaya qalxırdılar.

Yuxarıda hava soyuq idi. Buxara dönmüş damlalar üşüyüb büzüşdülər, bir yerə toplaşdılar, bulud yarandı. Külək buludu dənizin üzərindən qovub uzaqlara apardı.

Qış gəlmişdi. Bulud soyuqdan, küləyin onu ora-bura qovmasından yorulub ağladı. Qar yağmağa başladı. Hava çox soyuq olduğuna görə o,

bu dəfə yağış damlası deyil, qar dənəsi olmuşdu. Qar dənəsi küləyin qanadlarında quş kimi uçurdu. O bilirdi ki, bir azdan torpağa düşəcək və həmişəki yolunu yenidən təkrar edəcək.

Qışda yağan qar hava isinən kimi əriyib suya dönür, kiçik gölməçələr yaradır. Günəş çıxanda bu gölməçələr yox olur.

Təbiətdə su daim Günəşin istisi ilə buxarlanıb havaya qalxır və bulud əmələ gətirir. Buludlar isə yağıntıya – yağışa, qara, doluya çevrilir və su yenidən yerə qayıdır.



yağış *qar* *dolu*

1) Su bir haldan başqa hala keçməsəydi, nə baş verərdi?

2) Evdə təcrübə aparın: Stəkana bir parça buz atın. Bir neçə saatdan sonra stəkanda nə baş verdiyini yoxlayın. Sonra stəkanı isti yerə qoyun. Bir neçə gündən sonra təcrübənizin nəticəsini yoxlayın.

Təbiətdə temperaturun təsiri ilə su buxar və buz halına düşür.

17. AYSUNUN AĞACI

Fəsillər bir-birindən necə fərqlənir?

Dərs ili yarı oldu. Məktəblərdə tətil başladı. Tətil günlərində Aysu kəndə – babasıgilə qonaq getdi.

Aysu babasıgilə hansı fəsildə qonaq getmişdi? Bu fəsildə təbiət necə olur?

O, səhər yuxudan durub əl-üzünü yudu. Sonra pəncərədən baxdı. Hava soyuq idi. Pəncərənin şüşələri buz bağlamışdı. Yerdə qar vardı. Babası həyətdə ağacların arasında gəzirdi. Aysu paltosunu, papağını geyinib babasının yanına qaçdı.

– Sabahın xeyir, baba!

– Sabahın xeyir olsun, Aysu!

– Nəyə baxırsan, baba?

– Bu albalı ağacı neçə ildir, bar vermir. İstəyirəm, bunu kəsib əvəzində başqa ağac əkim.

Aysunun ağaca yazığı gəldi.

– Kəsmə, baba, bəlkə, bu il meyvə verəcək?!

– Yaxşı, Aysu, kəsməyəcəyəm. Qoy bu sənin ağacın olsun.

Novruz tətilinin son günləri idi. Aysu yenə babasıgilə gəlmişdi.

Biz Novruz bayramını hansı ayda qeyd edirik? Bu vaxt hansı fəsil başlayır?

Babası ona dedi:

– Sənin albalı ağacın tumurcuqlayıb, baxmaq istəyirsənmi?

– Əlbəttə, babacan!

Onlar həyətə çıxdılar. Hava o dəfəki kimi soyuq deyildi. Qarlar ərimişdi. Torpaqda ara-sıra göy rəngli balaca çiçəklər, topa-topa otlar gözə dəyirdi. Albalı ağacının budaqlarında xırdaca tumurcuqlar vardı.

Bir neçə ay keçdi. Dərs ili başa çatdı. Aysu ikinci sinfi bitirib tətilə çıxdı. Atasından xahiş etdi ki, onu kəndə, babasıgilə aparsın. Ata Aysunu kəndə apardı.

Dərs ili hansı fəsildə başa çatır? Bu fəsli fərqləndirən əsas əlamət nədir?

Aysu həyətə girən kimi albalı ağacının yanına qaçdı. Ağacda o qədər albalı vardı ki... Aysu bunu görüb çox sevindi.

Albalını yığdılar. Aysu doyunca albalı yedi. Ana albalıdan mürəbbə, cem bişirdi, qışda içmək üçün kompot hazırladı.

Baba dedi:

– Yaxşı ki Aysunu dinlədim, albalı ağacını kəsmədim.



Bir neçə ay sonra yeni dərs ili başladı. Aysu artıq 3-cü sinifdə oxuyurdu. 3-cü sinifdə ilk tətilə çıxan kimi o, yenə kəndlərinə, baba-nənəsini və öz albalı ağacını görməyə getdi.

Yeni dərs ili hansı ayda başlayır? Bu hansı fəslin ayıdır?

Bu fəsildə ağac onu başqa görkəmdə qarşıladı. Yarpaqları saralıb tökülmüş, budaqlarında çox az yarpaq qalmışdı. Aysu herbari hazırlamaq üçün saralmış yarpaqlardan yığdı.

1) Fəsillər dəyişdikcə təbiət nə üçün dəyişir?
2) "İlin fəsilləri və təbiətdə su" adlı mətn tərtib edin.

Fəsillər dəyişdikcə təbiət və insanların geyimi dəyişir.

18. MİLLİ PARKDA

Təbiətdə gözəl göllər, gur çaylar, uca dağlar var.

Kamranın ailəsi həftəsonu Göygöl Milli Parkına getmişdi. Burada təbiət çox gözəl idi. Yol sıx meşəlikdən keçirdi.

Gölün suyu göy rəngdə görünürdü. Kamran anasına dedi ki, ona bu gözəl göl barədə danışsın. Ana Kamrana göl haqqında maraqlı məlumat verdi. O dedi:

– Burada ***nadir*** ağac növləri qorunur. Milli Parkın ərazisində cüyür, maral, ayı və digər heyvanlar yaşayır.

– Bəs niyə biz onları görmürük?

– Gündüzlər səs-küy olduğu üçün heyvanlar gölün sahilindən uzaqlaşırlar.

– Bu göldən Azərbaycanda daha harada var?

– Göygöl burada tək deyil. Sənə Maralgölü də göstərəcəyəm. Maralgöl də gözəldir. Bu göllər zəlzələ nəticəsində yaranıb. Çox illər əvvəl

burada zəlzələ olub. Zəlzələ dağı yerindən oynadıb. Dağdan qopan böyük qaya parçaları çaya düşüb.

– Çayın qarşısını kəsib?

– Bəli.

– Bildim, çay axa bilməyib, suyu yığılıb göl olub.

Ana gülümsədi:

– Elədir, düz tapdın. Zəlzələdən qabaq burda bir çay vardı. Zəlzələdən sonra isə həmin çay iki yerə bölünüb, biri göldən yuxarıda, biri isə aşağıda qalıb.

– Bütün göllər, çaylar belə yaranır?

– Bütün göllər, bütün çaylar belə yaranmır. Onları yaradan səbəblər çox müxtəlifdir.

– Bəs dağ? Zəlzələdən sonra dağ yox oldu?

– Xeyr, yox olmadı, ancaq o daha əvvəlki görkəmdə deyildi. Dağın zirvəsi uçdu, amma əvəzində Göygöl, Maralgöl kimi gözəl göllər yarandı.

Göygöl

Göllər və çaylar kimi dağları və düzənlikləri də təbiət hadisələri yaradır. Yer üzündəki təbiət abidələrinin bəziləri fövqəladə hadisə nəticəsində qısa zamanda, bəziləri isə uzun illər ərzində yaranmışdır. Məsələn, vulkan püskürməsindən hündür dağ yaranar, hündür dağ isə yavaş-yavaş alçalıb təpəyə, sonra isə düzənliyə çevrilə bilər.

1) Şəkildə hansı təbiət hadisəsi göstərilmişdir?
Bu hadisənin nəticəsində nə əmələ gəlmişdir?
2) Hansı təbiət hadisələri nələr yarada bilər?
Cədvəli tamamlayın.

Təbiət hadisəsi	Nəticə

Təbii hadisələr yer üzündə dəyişikliklərə səbəb olur.

BİZ VƏTƏNDAŞIQ

İNSANLAR ARASINDA

- Güc birlikdədir
- Hüquqlarımız qorunur
- Yaxşı nədir, pis nədir?
- Cibxərcliyi
- Sonanın sualı

VƏTƏNİMİZ

- Azərbaycan Respublikası
- Ordumuz bizi qoruyur
- Azərbaycanın milli pulu
- Doğma Vətən

19. GÜC BİRLİKDƏDİR

Biz kollektivik.

Hər bir insan həm bir ailənin, həm də müəyyən bir kollektivin üzvüdür. Kollektiv birgə çalışan insanların birliyidir.

Ailədən fərqli olaraq, insanları kollektivdə qohumluq münasibətləri yox, gördükləri iş birləşdirir.

Sinif yoldaşlarım və müəllimlərimizlə birlikdə biz bir kollektivik.

Bacımın da bağça yoldaşları və tərbiyəçi-müəllimləri var. Onlar da bir kollektivdir.

Anam həkimdir. O, tibb işçilərinin yaratdığı böyük kollektivin üzvüdür.

Atam tikinti mühəndisidir.Tikintidə insanlar kollektiv şəkildə işləyirlər.

Tikintidə sürücülər, bənnalar, rəngsazlar, dülgərlər birgə işləməsələr, yaşayış evləri, məktəblər və digər böyük binalar tikilməz.

Məktəbdə müxtəlif fənləri ayrı-ayrı müəllimlər öyrədirlər. Poliklinika və xəstəxanada da ayrı-ayrı xəstəlikləri müalicə edən həkimlər birlikdə işləyirlər. Kollektivdə güc birlikdədir.

Uşaqlar da idman, musiqi və başqa kollektivlər yaradırlar. Onlar birlikdə müxtəlif oyunlar oynayırlar. Birlikdə oynamaq daha maraqlı olur.

1) Ailə ilə kollektivin fərqini və oxşar cəhətlərini izah edin.
2) Kollektiv yaratmağın insanlar üçün faydası nədir?

İnsanlar kollektivdə birlikdə işləyirlər. Kollektivdə onlar bilik və bacarıqlarını birləşdirib daha güclü olurlar.

20. HÜQUQLARIMIZ QORUNUR

“İnsan hüquqları” nə deməkdir?

Hər bir uşaq ailəsi ilə yaşaya, xoşuna gələn oyunları oynaya, fikir bildirə bilər. Bunlar uşağın hüququdur. Bunlardan başqa uşaqların təhsil almaq, istədiyi incəsənətlə məşğul olmaq hüququ var. Sağlamlığının qorunması da uşaq hüquqlarından biridir.

Mən ailəmlə birlikdə yaşayıram.

Mən məktəbdə oxuyuram.

Mən rəsm çəkirəm.

Sağlamlığım qorunur.



Oyunlar oynamaq da uşaqların hüquqlarıdır. Bu hüquqlar uşaqların sağlam inkişafı üçün şərait yaradır. Ölkəmizdə bütün uşaqların eyni hüquqları vardır.

MƏKTƏBLİNİN HÜQUQLARI:

- *Pulsuz təhsil almaq;*
- *Məktəbin sinif otaqlarından istifadə etmək;*
- *Məktəbin kitabxanasından istifadə etmək;*
- *Məktəbin idman zalından istifadə etmək;*
- *Dərsliklərdən pulsuz istifadə etmək.*

BUNLAR UŞAQLARIN HÜQUQLARININ POZULMASIDIR:

- *Azyaşlı uşaqların işlədilməsi;*
- *Təhqir edilməsi;*
- *Təhsildən yayındırılması;*
- *Sağlamlığına laqeyd münasibət bəslənməsi.*

Özünüzün və yoldaşlarınızın hüquqlarının pozulmasına laqeyd qalmayın.

1) Hüquqlarınızı sadalayın.
2) Sizin məktəbdə hüququnuz pozularsa, kimə müraciət etməlisiniz? Nə üçün?

Bütün uşaqların bərabər hüquqları vardır.

21. YAXŞI NƏDİR, PİS NƏDİR?

Yaxşı insan necə davranmalıdır?

İnsanlar xasiyyətlərinə görə müxtəlif olurlar. Bəziləri gülərüz, mehriban və xeyirxah, bəziləri isə qaşqabaqlı, laqeyd olurlar. İnsanları sevmək, onlara mehriban yanaşmaq yaxşı keyfiyyətlərdir. Mərhəmətli, sadə insanlar ətrafdakılarla həmişə bu cür davranırlar. Belə insanları hamı sevir. Onlar haqqında danışanda "yaxşı insandır" deyirlər.

Oyun zamanı rəqib komandadan olan yoldaşını qəsdən yıxmaq yaxşı hərəkət deyil.

Əksinə, rəqib komandadan olan yoldaşın yıxılarsa, ona ayağa qalxmaqda kömək etmək lazımdır.

Şagird yoldaşına dərslərində kömək etmək yaxşı hərəkətdir.

Heç kimə kömək etməmək, paxıl, kinli olmaq insana yaraşmayan keyfiyyətlərdir.

Bunlar mənfi keyfiyyətlərdir:

- *yalançılıq*
- *qorxaqlıq*
- *tənbəllik*
- *paxıllıq*

Kimə qayğıkeş deyirlər?

Heyvanları bəsləmək qayğıkeşlikdir.

Bitkilərə qulluq etmək, özündən kiçiklərə yardım etmək qayğıkeşlikdir. Qayğıkeşlik xeyirxahlıqdır.

Kimlərin qayğıya daha çox ehtiyacı var?

Bir gün müəllim bizə dedi ki, bəzi yaşlı, tənha insanlar qocalar evində yaşayırlar. Kimsə onlara baş çəkəndə çox sevinirlər. Biz qərara gəldik ki, qocalar evinə, onların görüşünə gedək.

Şənbə günü müəllimimiz bizi qocalar evinə apardı. Qocalar evinin sakinləri gəlişimizdən çox sevindilər. Biz gətirdiyimiz hədiyyələri onlara verdik.

İşçilər, həkimlər orada yaşayan insanlara qulluq edirlər. Axı

Qocalar evində

insanlar yalnız körpəlikdə deyil, yaşlı vaxtlarında da qayğıya ehtiyac duyurlar.

Bir müddətdən sonra müəllimimiz bizi uşaq evinə də apardı. Uşaq evində valideyn himayəsindən məhrum olmuş uşaqlar yaşayırlar. Onların arasında bizim yaşıdlarımız da var. Biz uşaq evinin sakinləri ilə dostlaşdıq. Onlarla söhbət etdik, birlikdə oyunlar oynadıq.

Uşaq evində

Uşaq evindəki görüşümüz çox maraqlı keçdi. İndi hər birimizin orada bir neçə dostu var. Biz onlarla tez-tez əlaqə saxlayırıq. Bayram günlərində isə valideynlərimiz, yaxud müəllimimiz bizi onların görüşünə aparır.

1) Sizdə mətndə göstərilən keyfiyyətlərdən hansılar var?
2) Sizə kimlər qayğı göstərirlər?
3) Uşaq evində yaşayan yaşıdınıza məktub yazın.

Mehriban, qayğıkeş olmaq müsbət, paxıl, tənbəl olmaq, yalan danışmaq isə mənfi keyfiyyətlərdir.

22. CİBXƏRCLİYİ

Adilin özündən başqa iki qardaşı var. Üçü də məktəblidir. Hər səhər qardaşlar birlikdə məktəbə yollanırlar. Hər bazar ertəsi ata onlara cibxərcliyi verir. Böyük qardaşlar pulu alıb atalarına təşəkkür edirdilər. Adil isə pulun azlığından şikayətlənirdi.

Bir bazar ertəsi ata Adilə qardaşlarından artıq pul verdi. Adil çox sevindi. Həftə ərzində onu son qəpiyinə qədər xərclədi.

Növbəti bazar ertəsi ata qardaşlara cibxərcliyi verdi, Adilə isə yox.

Sizcə, atası Adilə nə üçün cibxərcliyi vermədi?

Adil elə bildi ki, atası ona pul verməyi unudub. Ona görə də dedi:

– Ata, mənim cibxərcliyimi verməyi unutdun.

Ata cavabında:

– Xeyr, oğlum, sənin cibxərcliyini vermişəm, sən unutmusan, – dedi.

Adil əllərini və ciblərini göstərdi:

– Ata, görürsənmi, əllərim də, ciblərim də boşdur. Qardaşlarıma pul verdin, amma mənə vermədin.

Ata gülümsəyib dedi:

– Vermişəm, oğlum. Mən aldığım əməkhaqqına görə sizə həftə ərzində yalnız bu qədər pul verə bilərəm. Amma sənin narazılığını nəzərə alıb ikihəftəlik cibxərcliyini bir həftədə verdim. Əgər ***israfçılıq*** etməsəydin, indi pulsuz qalmazdın.

Adil başa düşdü ki, növbəti bir həftədə atasından cibxərcliyi istəməməlidir, çünki artıq bu həftə üçün ona düşən pulu xərcləyib. Onların söhbətini dinləyən böyük qardaş dedi:

– Mən cibxərcliyimi ***qənaətlə*** xərcləyirəm, ona görə də indi bir qədər pulum var. Bu həftə sənin cibxərcliyini mən verəcəyəm.

Adil çox utandı. O, qardaşına təşəkkür etdi. Bu hadisədən sonra atasından pul alanda azlığından şikayətlənmirdi. Başa düşmüşdü ki, az-çoxluğundan asılı olmayaraq cibxərcliyini qənaətlə xərcləmək lazımdır.

1) İsrafçılıqla qənaətcilliyin fərqini yoldaşlarınızla müzakirə edin.
2) Birgünlük cibxərcliyinizi bölüşdürüb cədvəl şəklində yazın.

Biz öz cibxərcliyimizi düzgün bölüşdürməli, artıq xərclərə yol verməməliyik.

23. SONANIN SUALI

Sona həyətdə uşaqlarla oynayırdı. Qonşuları Elman baba və Albert baba ağac kölgəsində skamyada oturmuşdular. Elman baba dedi:

– Allah bu ağacı əkənin imanını kamil etsin! İndi oturmuşuq kölgəsində, isti bizə təsir etmir.

Albert baba cavab verdi:

– Düz deyirsən, ay Elman, imanlı insan çalışır ki, yaxşı işlər görsün.

Sona düşündü ki, görəsən, "imanlı insan" kimdir? O, birinci dəfə idi ki, bu sözü eşidirdi.

Anası işdən gələndə Sona ondan soruşdu:

– Ana, imanlı insan kimdir? Mən həyətdə oynayanda Elman baba ilə Albert baba danışırdılar, mən bu sözü onlardan eşitdim.

Ana ona dedi:

– İmanlı insan dinə, Allaha, peyğəmbərlərə inanan, dini qaydalara əməl edəndir. Dini qəbul edən insanlar onun qaydalarına uyğun ibadət edirlər. Məsələn, Elman baba müsəlmandır, onun dini islamdır. Elman baba məscidə gedir, namaz qılır. Albert baba isə yəhudidir. Yəhudiliyin də öz ibadət qaydaları, öz ibadət yerləri var. Sinaqoq yəhudilərin, kilsə isə xristianların ibadət yerləridir. Üzbəüz binada xristian ailə yaşayır. Onların Yura adlı oğlu da var, sən tanıyırsan.

– Tanıyıram, yaxşı uşaqdır, oyun vaxtı həmişə bizim komandada olur.

Bakı şəhərində Heydər məscidi

Müsəlmanlar ibadət vaxtı

– Bu insanların dini ayrı olsa da, onlar bir ölkədə, bir həyətdə dinc yaşayır, dostluq edirlər. Azərbaycan çoxdinli ölkədir.



Bakı şəhərində xristian kilsəsi

Xristianlar ibadət vaxtı

Yəhudilər ibadət vaxtı

Azərbaycanın Quba rayonunda, Qırmızı qəsəbədə yerləşən sinaqoq

Dünyada din çoxdur. Yəhudi, xristian və islam dinləri daha geniş yayılmışdır. Bu dinlərin hamısı insanı dürüst və mərhəmətli olmağa çağırır.

1) Hansı dinləri tanıyırsınız?
2) Dinlərin hansı oxşar cəhətləri var?

Yəhudi, xristian və islam dinləri daha geniş yayılmışdır. İnsanlar qəbul etdikləri dinlərin qayda-qanunlarına uyğun yaşamağa çalışırlar.

24. AZƏRBAYCAN RESPUBLİKASI

Dövlət nədir?

Bayraq, gerb və himn dövlət rəmzləridir. Müstəqil dövlətin özünə aid rəmzləri olur. Bunlardan başqa dövlətin başçısı, ərazisi, ordusu, paytaxtı, milli pulu da olur.

Dövlətimizin adı Azərbaycan Respublikasıdır. Azərbaycan Respublikası 1918-ci il may ayının 28-də yaradılmışdır, ona görə də biz hər il mayın 28-ni Respublika Günü kimi qeyd edirik.

Azərbaycan Respublikasının təhlükəsizliyinin keşiyində Silahlı Qüvvələrimiz durur.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri

Azərbaycan Respublikasının ərazisi toxunulmazdır və bölünməzdir.
Dövlət dilimiz Azərbaycan dilidir.
Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəridir.

1) Dövlət rəmzləri hansılardır?
2) Dövlət rəmzlərimizə nə üçün hörmət etməliyik?
3) Dövləti qorumaq nə üçün vacibdir?

BUNLARI BİLMƏLİSİNİZ!

Dövlət rəmzlərimiz Azərbaycan dövlətinin, onun müstəqilliyinin və birliyinin müqəddəs rəmzidir.

Dövlət bayrağımız

Azərbaycan bayrağının eni onun uzunluğunun yarısına bərabərdir. Biz bayrağımızın şəklini çəkəndə, yaxud onu rəngli kağızlardan hazırlayanda ölçülərinin nisbətini pozmamalıyıq.

Dövlət gerbimiz

Dövlət gerbimiz palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə bayrağımızın rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov vardır.

Gerbimizi təsvir edərkən onun elementlərini dəyişmək olmaz.

Dövlət himnimiz

Böyük bəstəkar Üzeyir Hacıbəyli və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Azərbaycanın Dövlət himni kimi təsdiq edilmişdir.

Himnimizi oxuyarkən mətnin sözlərini dəyişmək olmaz.



Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi *Üzeyir Hacıbəylinin*,
sözləri *Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadirız!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gəncər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

Bizim müstəqil dövlətimiz var. Bu, Azərbaycan Respublikasıdır.

25. ORDUMUZ BİZİ QORUYUR

Hərbi xidmət nə deməkdir?

Qardaşımın 18 yaşı tamam olanda onu hərbi xidmətə yola saldıq. O, hərbi xidmətə yola düşəndə ailə üzvlərimiz çox sevinirdi. Ata-anam daha qürurlu idilər. Əsgər atası, əsgər anası olmaq onları fərəhləndirirdi. Hamı bizə gözaydınlığı verirdi. Axı bizim də ailənin övladı Vətənin keşiyində duracaq. Qardaşım elə bil bu günlərdə çox böyümüş, əsl əsgər olmuşdu. Onun hərəkətləri, bizimlə davranışı da fərqli idi. O, arzu-

suna çatmışdı. Axı hər bir uşaq böyüyüb əsgər olmağı, Vətənin keşiyində durmağı arzulayır.

Azərbaycan sülhsevər ölkədir. Güclü ordu yaratmasına baxmayaraq, Azərbaycan dövləti və xalqı müharibə istəmir. Torpaqlarımızın bir hissəsi Ermənistanın işğalı altında olanda da biz istəyirdik ki, torpaqlarımızı dinc yolla geri qaytaraq. Təəssüf ki, bu, mümkün olmadı. Müzəffər ordumuz torpaqlarımızı düşmən işğalından azad etmək üçün əks-hücuma keçməli oldu.

Azərbaycan əsgərləri müharibədə böyük şücaət göstərdilər. Torpaqlarımız işğaldan azad edildi. Əsgər və zabitlərimizin çoxu orden və medallarla təltif olundu. Mənim qardaşıma da cəbhədə göstərdiyi hünərə görə medal verdilər. Hamı bizi təbrik edirdi. Biz çox xoşbəxt idik. Bu savaş bütün dünyaya göstərdi ki, Azərbaycanın qüdrətli ordusu var. Ordumuz ölkəmizi, onun sərhədlərini qoruyur. Xalqımız ordumuza güvənir.

27 sentyabr Vətən müharibəsində şəhid olanların anım günüdür. Noyabrın 8-də isə xalqımız Zəfər Gününü qeyd edir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Zəfər paradı

1) Silahlı Qüvvələrin vəzifəsi haqqında danışın.
2) Azərbaycanın ərazi bütövlüyünün qorunmasında ordumuzun qəhrəman mübarizəsi haqqında inşa yazın.

Azərbaycanın qüdrətli ordusu var. Azərbaycan xalqı öz ordusuna güvənir.

26. AZƏRBAYCANIN MİLLİ PULU

Milli pul nədir?

Azərbaycan manatı Azərbaycanın milli puludur. Azərbaycan Respublikasında insanların əməkhaqqı, təqaüd və pensiyaları milli pulla, yəni Azərbaycan manatı ilə verilir. Pullar xüsusi kağızdan və metaldan hazırlanır. Bir manat yüz qəpikdir.

Milli pulumuz

Milli pulumuz dövlətimizə aid əlamətlərdən biridir. Pulu cırmaq, üstünə yazı yazmaq, şəkil çəkmək olmaz. Əzilməməsi üçün pulu pul-qabıda gəzdirmək olar.

Pul insanlara nə üçün lazımdır?

İnsanlar istifadə etdikləri təbii qazın, elektrik enerjisinin və suyun haqqını pulla ödəyirlər. Onlar pulla ərzaq, paltar, kitab, ev əşyaları alırlar.

Pulu qənaətlə xərcləmək lazımdır. Evdə su kranını açıq qoymaq, işığı lazımsız yerə yandırmaq həm də pulu israf etmək deməkdir.

1) Şəkildəki pulları ümumi və fərqli cəhətlərinə görə müqayisə edin.
2) İnsanlar pulu daha çox nələrə sərf edirlər?

Milli pulumuz dövlətə aid əlamətlərdən biridir. Ona hörmətlə yanaşmaq, qənaətlə xərcləmək lazımdır.

27. DOĞMA VƏTƏN

Biz Vətənə sevgimizi necə göstərə bilərik?

Dünyanın harasında yaşamasından asılı olmayaraq, Azərbaycan bütün azərbaycanlıların doğma Vətənidir. Biz Vətənə layiqli vətəndaşlar olmağa çalışırıq. Vətən sevgisini biz Azərbaycan uğrunda canını qurban vermiş şəhidlərimizdən, torpaqlarımızın bütövlüyünü qoruyan cəsur qazilərimizdən öyrənirik.

Biz Azərbaycan Respublikasının dövlət rəmzlərinə bələd olmağı, biliklərə yiyələnməyi, davranış qaydalarına əməl etməyi özümüzə borc bilirik. Yaxşı insan olmaq, insanlar üçün faydalı işlər görmək istəyirik.

Vətən torpağı Azərbaycan xalqı üçün müqəddəsdir!
Şəhidlər ölməz, Vətən bölünməz!
Torpaqdan pay olmaz**!**

1) “Vətəni sevmək” nə deməkdir?
2) Vətəni sevməyi biz kimlərdən öyrənirik?
3) “Mənim Vətənim” adlı esse yazın.

Vətən müqəddəsdir. Hər bir insan öz Vətənini sevməlidir.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu
3. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu
4. Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanunu
5. Yol hərəkəti haqqında Azərbaycan Respublikasının Qanunu
6. Azərbaycan Respublikasının Mərkəzi Bankı. Tədavüldə olan pul nişanları https://www.cbar.az/page-28/currency-in-circulation
7. Uşaq Hüquqları konvensiyası
8. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə, "Azərbaycan" cildi. Bakı, 2007
9. Mina təhlükəsizliyi. UNICEF, ANAMA, Buklet, Çaşıoğlu Eİ-MMC
10. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi. Fövqəladə hallarla bağlı davranış qaydaları. https://www.fhn.gov.az/?aze/menu/26.
11. Azərbaycanda din.files.preslib.az › projects › remz ›.Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası
12. https://mehriban-aliyeva.az/kids_azerbaijan/remzler (Dövlət rəmzlərimiz)
13. https://www.youtube.com/watch?v=e5tu4a1Fe9A (Həyat amilləri)

BURAXILIŞ MƏLUMATI

HƏYAT BİLGİSİ 2
Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün
Həyat bilgisi fənni üzrə
DƏRSLİK

Tərtibçi heyət:

Müəlliflər ***Gülər Ələkbər qızı Mehdiyeva***
Aybəniz Paşa qızı İbrahimova

Redaktor ***Mətanət Kərimova***
Bədii və texniki redaktor ***Abdulla Ələkbərov***
Dizayner ***Təhmasib Mehdiyev***
Rəssamlar ***Gündüz Ağayev,***
Təhmasib Mehdiyev
Korrektor ***Günel Məmmədova***

Dərsliyə rəy verən təşkilat:
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2021-013)

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 8,5. Fiziki çap vərəqi 10,0. Formatı 57x82 1/8.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 80.
Şriftin adı və ölçüsü: jurnal qarnituru 13–16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş 56. Tiraj 86037. Pulsuz. Bakı–2021.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 12.07.2021

Nəşriyyat:
“Aspoliqraf LTD” MMC
(Bakı, AZ 1052, F.Xoyski küç., 151)

Çap məhsulunu istehsal edən:
“Təhsil Nəşriyyat-Poliqrafiya” MMC
(Bakı, AZ 1052, F.Xoyski küç., 121A (149))

PULSUZ

Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!